*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 sentyabr 2020-ci il № 56 (2474) Qiymәti 30 qəpik


# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib



*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Naxçıvanda iki ölkənin Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsi keçirilib.*

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Şərəf Öngay təlimi izləyiblər.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev təlimə hazırlıq barədə raport verib.

Əməliyyat taktiki təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birləşmə, hissə və bölmələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsindən, eləcə də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələri ilə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili və idarəetmənin təmin edilməsindən ibarətdir.

Planla tanışlıqdan sonra təlimə start verilib.

Təlimin ssenarisinə əsasən, döyüş atışlı mərhələ düşmənin mülki əhali arasında çaxnaşma yaradan və dövlət sərhədində təxribat törədən kəşfiyyat-diversiya qruplarının "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru və Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları tərəfindən zərərsizləşdirilməsi ilə başlayıb. Düşmən təxribatlarına cavab olaraq Əlahiddə Ümumqoşun Ordunun raket və artilleriya birləşmə və hissələri tərəfindən şərti düşmənə atəş zərbələri endirilib. Naxçıvan Qarnizonu Qoşunları Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə hücuma keçərək şərti düşmənin dayaq məntəqələrində canlı qüvvəsini, atəş vasitələri və zirehli texnikalarını məhv edib, hakim yüksəkliklərdə və əlverişli hədlərdəki mövqeləri ələ keçirib. Hücumun gedişində düşmənin aviasiyası məhv edilib, kiçik ölçülü pilotsuz uçuş aparatları zərərsizləşdirilərək dərinlikdən hərəkət edən ehtiyatlarına aviazərbələr endirilib.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri "BOO-2020" yarışlarının bağlanış mərasimində iştirak edib

*"Beynəlxalq Ordu Oyunları" dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin formalaşması, dostluq və rəqabət gücünün daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. "Beynəlxalq Ordu Oyunları" yarışları ordumuzun gücünü bir daha nümayiş etdirir və ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Bu əhəmiyyət çoxşaxəlidir, onun siyasi-diplomatik nəticələri Azərbaycanın və onun ordusunun beynəlxalq münasibətlər sistemində mövqeyini daha da gücləndirir.*





Yüksək döyüş hazırlığının nəticəsidir ki, Azərbaycan hərbi qulluqçuları hər zaman "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Dəniz kuboku", "Tank biatlonu", "Səhra mətbəxi", "Hərbi-tibbi estafet", "Snayper həddi" və "Artilleriya atəşinin ustaları" müsabiqələrində ölkəmizi yüksək səviyyədə təmsil ediblər.

Təsadüfi deyil ki, Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında şəffaf, qarşılıqlı anlaşma şəraitində keçən "Beynəlxalq Ordu Oyunları-2020" çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsinin qalibi Rusiya ilə birgə məhz Azərbaycan komandası oldu. Eyni zamanda, tankçılarımız ötən illərdə olduğu kimi, 2020-ci ildə də ölkəmizi "Tank biatlonu" müsabiqəsində layiqincə təmsil etdilər və finalda iştirak etmək hüququ qazandılar. Ümumiyyətlə, Azərbaycan hərbi qulluqçuları indiyə qədər bütün müsabiqələrdə özünü yaxşı tərəfdən göstərməyi bacarıblar. Bütün bunlar Azərbaycan Ordusunun inkişaf səviyyəsinin göstəricisidir.

"Beynəlxalq Ordu Oyunları" yarışları da sübut edir ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməklə yanaşı, şəxsi heyəti ordumuzu beynəlxalq yarışlarda da yüksək səviyyədə təmsil etmək gücündədir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının, Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyulan vəzifələri uğurla həyata keçirməsinin nəticəsində mümkün olub.

"Beynəlxalq Ordu Oyunları-2020" ərəfəsində Moskvada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 5-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza ilə görüşüb.

Görüşdə xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb, bu problemin həllində Pakistanın Azərbaycanın ədalətli mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləməsinə görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə Pakistan arasında təhlükəsizlik, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində, terrorizmə qarşı mübarizədə əməkdaşlığın, Hərbi Hava və Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin genişləndirilməsi, eləcə də birgə hərbi təlimlərin keçirilməsi məsələləri müzakirə olunub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 5-də Moskva şəhəri yaxınlığındakı Alabino poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları-2020" (BOO-2020) yarışlarının son günündə keçirilən "Tank biatlonu" müsabiqəsinin final mərhələsinə çıxmış Azərbaycan tankçılarının digər komandalarla mübarizəsini izləyib və qalib gəlmiş hərbi qulluqçuların mükafatlandırılmasında iştirak edib.

"BOO-2020" yarışlarının təntənəli bağlanış mərasimi konsert proqramı ilə sona çatıb.

Qeyd edək ki, hərbçilərimiz bu yarışlar çərçivəsində keçirilən "Dəniz kuboku" və "Tank biatlonu" müsabiqələrində ölkəmizi yüksək səviyyədə təmsil ediblər.

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# "Döyüşlərin qəhrəmanları biz olacağıq!"

*Payızın ruhu duyulur. Yayla payızın arasında bir gözümlə yaya baxıram, bir gözümlə payıza. Beş-altı addım arxada yaydı, beş-altı addım qabaqda payız; yay sağ əlimizi buraxmır, sol əlimiz payıza çatmır...*



Təbiətin hökmü kimi ağacların yarpaqlarının rəngində sarılaşma duyulur. Yel əsdikcə titrəşən yarpaqlara gözdolusu baxmaq olmur. Bir dəfə səngərdə "Yaşayanda da ağac ömrü yaşayasan, yarpaq ömrü yox" demişdim və onu şeirləşdirmişdim. Misralar əsgərləri duyğulandırmışdı. O vaxtdan bəri səngərlərdə payızdan söz açanda könlümdə qəribə duyğular gərnəşir. Bu gün payız söhbətlərimizə necə ətək sərəcək görəsən?..

Səngərlər görününcə ürəyim tellənir, mənə elə gəlir ki, ruhum bir boy da dikəlir, beş-on addımdan sonra qələbə yoluna ayaq basacam. Bu inamı bəribaşdan torpaqlarımızın yaralarına bağayarpağı bilirəm...

Son vaxtlar yazdıqlarım Azərbaycan əsgərinə müraciət kimi səslənir. Eyni ruhun zərrələri olduğuna görəmi, döyüş əzmini, qələbə ruhunu cəmiyyətin istəyinə göyqurşağı bildiyimə görəmi, əsgərlərimizin Ali Baş Komandanın döyüş əmrini qələbəylə sonlandıracağı inamına görəmi, "Səngərləri sərhədlərə köçürəcəyik!" qətiyyətinə görəmi, yoxsa hamısına görəmi. Bunlar bir inamın zərrələridi. Jurnalistin özü də, qələmi də xalqa məxsus olduğuna görə bu inam xalqın inamıdı...

"Ordu-ictimaiyyət münasibətlərinin milli-mənəvi dəyərlər əsasında formalaşması qarşılıqlı inamdı, güvəncdi. Bu inam, bu güvənc günümüzün mahiyyətidi, zaman anlamında sabah ordumuzun daha qüdrətli olacağının zəmanətidi. Ordusuna inamı sevgi, sevgisi inam olan xalq tarixin axarını dəyişməyə də qadirdir. 2016-cı ilin aprelində də, bu ilin iyulunda da düşmənin təxribatının qarşısını alanlarımız xalqın "Buradayıq! Sıranıza gəlmişik!" kəlmələrinin mənəvi gücünü şəhidlərin ruhunun "Sıranızdayıq!" nidası ilə tamamlandığını ruhən yaşadı. Bu duyum, bu hissetmə, bu ovqat iyulda Tovuzda da yaşanıldı. "Ali Baş Komandanın döyüş əmri daha böyük coşqu yaradacaq. Bu coşqu Böyük Qələbənin uvertürası olacaq", - deyirəm. Zabit Səbuhi Qarayevin baxışlarında cəmləşən ovqatı səngərə çatdıracaq yolumuza işıq bilirəm. Zabit deyir ki, şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı istər ayrılıqda, istərsə də vəhdətdə yüksək olmayan, mənəvi-psixoloji hazırlığı döyüş hazırlığını tamamlamayan ordu güclü ordu ola bilməz. Səngərlərdə bura gəlincə düşüncələrimizdə şahlıq edən bu fikirlərin işığında söhbətləşəcəyik...

- Əsgərlərimiz də bilir ki, könüldən-könülə aparan yollar da ruhun qüdrətinə baş əyir. İctimaiyyət bu qüdrəti ordunun qüdrətinə tən bilir. Bu qüdrət yaxın vaxtlarda Böyük Qələbənin aydınlıq suyu olacaq, - deyirəm.

Zabit fikrimi qüdrətli bir fikirlə tamamlayır:

- Bu fikirləri bir azdan Böyük Qələbəni qazanacaq əsgərlərin əhatəsində də deyərsiniz. Onda əsgərlərin də, sizin də, ictimaiyyətin də arzuladığı xoş bir ovqat yaşanılacaq.

Gülümsünürəm, yəni, yaxşı...

...Səngərdə iyul döyüşlərindən danışmışıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 100 illiyi qeyd edilən Fransa Müqavimət Hərəkatı iştirakçısı partizan Əhmədiyə Cəbrayılovdan danışmışıq. Söz-sözü çəkib. Bu müharibədən, müharibənin qəhrəmanlıqlarından, qəhrəmanlarından danışmışıq.

**(Ardı 5-ci səhifədə)**

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

**(Əvvəli 1-ci səhifədə)**



Təlimin gedişində mühəndis, təminat və təxliyyə qrupları qətiyyətli fəaliyyət göstərərək hücum edən qoşunlarımızın maneəsiz hərəkətini təmin ediblər. Əlahiddə Əməliyyat Briqadası tərəfindən şərti düşmənin kəşfiyyat-diversiya qrupları məhv edilib. Mülki Müdafiə Alayının pirotexniki taqımı ələ keçirilmiş mövqeləri və hərəkət marşrutlarını minalardan, partlayan və partlamayan maneələrdən təmizləyib. Təyin edilmiş rayonlara taktiki və hava desantı endirilib. Təlimdə Azərbaycan və Türkiyə birləşmə və hissələri arasında əməliyyatların birgə planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə qarşıya qoyulmuş məqsədlərə nail olunub. Şəxsi heyətin birgə fəaliyyəti zamanı xəbərdaretmə, idarəetmə, qarşılıqlı əlaqə, qarşılıqlı tanınma və hədəf göstərmə üzrə tapşırıqların eyni qaydada icrasına nail olunub, komandirlər arasında təcrübə mübadiləsi aparılıb.

Sonda döyüş təyyarələri və helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqlarının, eləcə də kanatla desantın daşınması nümayiş etdirilib.

Təlimdən sonra silahlanmaya yeni qəbul edilən hərbi radio-kəşfiyyat vasitələrinə baxış olub.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra şəxsi heyətlə görüş olub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər və zabitləri salamlayıb, onları Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edib, hərbi təlimin hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirib.

Ali Məclisin sədri Vasif Talıbov deyib: “Güclü ordu dövlətçiliyin və müstəqilliyin rəmzidir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən milli ordumuz olmalıdır". Ölkəmizə hər iki rəhbərliyi dövründə dahi şəxsiyyət bu məsələni diqqətdə saxlayıb, müstəqilliyimizin təminatçısı olan qüdrətli Azərbaycan Ordusunu yaradıb. Ulu Öndərin ordumuzun döyüş və peşəkarlıq səviyyəsinin artırılması sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının gücləndirilməsi və şəxsi heyətin döyüş hazırlığının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Güclü iqtisadiyyat və dövlət-xalq-ordu birliyi Azərbaycan Ordusunun qüdrətini, döyüş qabiliyyətini ilbəil artırır, ölkəmizdəki sabitlik və təhlükəsizlik möhkəmləndirilir”.

Ali Məclisin sədri Vasif Talıbov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu məsələləri ümumi inkişafın əsas istiqamətidir. “Fəal strateji mövqedə və blokada şəraitində yerləşən muxtar respublikada müdafiə təhlükəsizliyi tam təmin olunub. Böyük təşkilatlanma, quruculuq və inkişaf yolu keçən Naxçıvan Hərbi Qarnizonu yüksək döyüş qabiliyyətinə, peşəkar və vətənpərvər şəxsi heyətə malikdir. Bu gün Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Keçirilən birgə hərbi təlim də göstərdi ki, bizim gücümüz birliyimizdədir. Müdrik fikirlərdə deyildiyi kimi, ordunun gücü döyüş ləvazimatlarının çoxluğu ilə deyil, əsgərlərin peşəkarlığı, birliyi, cəsarət və ləyaqəti ilədir. Həqiqətən də, şəxsi heyətin birliyi, döyüş qabiliyyətinin artırılması və mənəvi-psixoloji hazırlığı hərbi xidmətin əsasını təşkil edir. Silah və texnika təminatı hələ güclü ordu yaratmaq demək deyil. O ordu güclüdür ki, onun şəxsi heyətində vətənpərvərlik ruhu və peşəkarlıq vardır. Hərbi təlimdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi də bir millətin, iki dövlətin ordularının yüksək döyüş qabiliyyətinə və birliyə malik olduğunu təsdiq etdi”.

"Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir", - fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir. Birgə hərbi təlimin keçirilməsi də Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının nümunəsidir", - deyən Ali Məclisin sədri çıxışını "Azərbaycan-Türkiyə dostluq və qardaşlığına eşq olsun!" ifadəsi ilə tamamlayıb.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Şərəf Öngay bildirib ki, birgə təlim Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildi. “Ordular arasında ikitərəfli əlaqələrin genişləndirilməsi nəticəsində təlim planauyğun şəkildə icra olundu. Müasir silah və texnikalara sahib olmaq döyüşün qazanılması demək



deyil. Vacib olan bu silah və texnikalardan peşəkarlıqla istifadə edə bilən şəxsi heyətin olmasıdır. Döyüş cəsur və igid əsgərlərlə qazanılır. Bu gün keçirilən təlim bunun bariz nümunəsidir. Təlim zamanı hədəflərin sərrast vurulması dosta güvən, düşmənə isə göz dağıdır”.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı birgə təlimin keçirilməsinə göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayev qeyd edib ki, təlimin hazırlanması və keçirilməsinə, ümumilikdə 5 min nəfərə qədər, döyüşatışlı mərhələnin keçirilməsinə isə 2 min 600-dən artıq şəxsi heyət cəlb edilib. Bundan başqa 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlifçaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemlər və minaatan, 18 təyyarə, helikopter və pilotsuz uçuş aparatı, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 320-ə yaxın avtomobil texnikası cəlb edilib. Təlimə hazırlıq dövründə birgə qərargahlar tərəfindən keçirilən məşqlərdə müxtəlif səviyyədə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili diqqət mərkəzində saxlanılıb. Düşmən fəaliyyətlərinin təqlid edilməsi məqsədilə təlim sahəsində 28 hədəf rayonunda 800-ə yaxın hədəf və 90-dan çox maketdən istifadə edilib. Yaradılmış hədəf rayonunun 100 faizi, hədəflərdən 85 faizdən, maketlərdən isə 90 faizdən çoxu məhv edilib. İdarəetmənin və atəşin düzgün planlaşdırılması nəticəsində 32 raketə, 220 iriçaplı mərmiyə, 4 aviasiya bombasına və 7800-dən çox atıcı silahların döyüş sursatına qənaət edilib.

Tədbirdə Azərbaycan Respublikası təltiflərinin təqdimatı olub.

Məlumat verilib ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 iyun tarixli Sərəncamı ilə Əlahiddə Ümumqoşun Ordunun zabitlərindən biri 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, ikisi "Vətən uğrunda" medalı, ikisi isə "İgidliyə görə" medalı ilə təltif olunub.

Ali Məclisin sədri Vasif Talıbov Azərbaycan Respublikası orden və medallarının döş nişanını və vəsiqələrini təqdim edib.

Təlimdə fərqlənən zabit, gizir və əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Sonra xatirə şəkli çəkdirilib.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



*Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Şərəf Öngayın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirərək deyib: "Ölkələrimiz arasındakı əlaqələrin inkişafında ordu quruculuğu xüsusi yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının mühüm tərkib hissəsi kimi dəyərləndirdiyi ikitərəfli hərbi əməkdaşlığımız bu gün ölkə prezidentlərinin iradəsinə uyğun olaraq davam və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirlərinə, xüsusilə bu sahədə qardaş Türkiyə ilə əməkdaşlığa mühüm əhəmiyyət verilir. 1997-ci ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 600-dən artıq Türkiyə hərbçisi xidmət keçib, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 120-yə yaxın kursant isə Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Həmçinin ötən il Əlahiddə Ümumqoşun Ordunun 72 hərbi qulluqçusu Türkiyədə müxtəlif kurslarda olmuşdur. Son illər keçirilən birgə hərbi təlimlər də uğurlu əməkdaşlığın nəticəsi kimi məmnunluq doğurur".

Ali Məclisin sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirib, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə minnətdarlıq edib.



Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Şərəf Öngay səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlıq edib, Naxçıvanda olmaqdan böyük qürur hissi keçirdiklərini bildirib. Ötən illərdə keçirilən birgə hərbi təlimlərdə iştirakını məmnunluqla xatırladan Şərəf Öngay "Bir millət, iki dövlət" prinsipinə əsaslanan ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri, xüsusilə birgə hərbi təlimlərin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*Döyüş hazırlığı*

# Böyük Qələbəyə gedən yolda döyüşə hər an hazırıq

*"N" hərbi hissəsində əsgərlərin döyüş hazırlığının təkmilləşdirildiyinin şahidi olduq. Zabit İlyas İlyasov dedi ki, əsgərlərimizin mənəvi-psixoloji vəziyyəti, peşəkarlığı və ixtisas hazırlığı daim diqqət mərkəzində saxlanılır. Əsgərlərin döyüş ruhunu yüksəltmək üçün zabitlər tərəfindən daim söhbətlər aparılır. Döyüş hazırlığımız isə dərs və təlimlərdə yüksəldilir.*

Gördüyümüz kimi, mühəndis-istehkamçılarımız xüsusi qurğunun taktiki-texniki xüsusiyyətlərini öyrənir və təcrübələrini təkmilləşdirirlər. Bu qurğu minalanmış sahədə keçid açmaq üçün istifadə olunur.

Digər tərəfdə bir qrup şəxsi heyət minaaxtaran vasitəsi ilə minaların tapılması və onların zərərsizləşdirilməsini məşq edirdilər.

Dərsin bitməsini səbirsizliklə gözləyirəm. Bu anda da əsgərlərimizin Vətən sevgisini düşünürəm:

- Torpağı sevmək, Vətən naminə canını fəda etmək həqiqi vətəndaşa xas olan qabarıq xüsusiyyətlərdəndir. Vətən sevgisi insan ruhuna ana laylası, ata nəvazişi ilə hopur. Ana körpəsinə laylasıyla bərabər, Vətən sevgisinin ilk toxumlarını səpir, illər ötür, bu sevgi düşüncəyə, ruha hopur, əlçatmaz ilahi duyğuya çevrilir.

Dərs bitdikdən sonra ilk həmsöhbətim dərs boyu əsgərlərinə bilik və bacarıq aşılamağa çalışan baş leytenant Camal Əzizbəyli oldu. Zabit qeyd etdi ki, əsgərlərin hər biri dərslərdə fəal iştirak edir, mühəndis-istehkam qurğularının fəaliyyətini dərindən öyrənirlər. "Hər bir əsgər öz məsuliyyətini dərk edir. Döyüş zamanı onların bir səhvinin başqalarının ölümünə səbəb ola biləcəyini bilirlər. Hər biri dərk edir ki, mühəndis-istehkamçı ehtiyatlı və dəqiq olmalıdır. Əsgərlər yaxşı bilirlər ki, döyüş meydanında minalanmış sahələri bir-bir təmizləyərək Qarabağa gedən yolu açacaqlar. Mən bu gün doğma torpaqlarımızda xidmət aparan bütün əsgərlərlə fəxr edirəm, qürurlanıram. Bu gün Azərbaycan əsgərinin taleyinə qeyrətli xalqın müdafiəçisi olmaq yazılıb. Axı onlar Ali Baş Komandanımızın əmrini ilk icra edənlər olacaq. Bu həqiqətən əsl fəxarətdir."



Dərsdə fəal iştirak edən əsgər Ədil İmanovla da həmsöhbət olduq. Hərbi xidmətinin çox hissəsini başa vuran əsgər ixtisasını həvəslə öyrəndiyini, komandirlərindən yeni-yeni biliklər aldığını, bu bilikləri xidməti zamanı dərslərdə möhkəmləndirdiyini, döyüş meydanında dəqiqliklə tətbiq etdiyini bildirdi.

Əsgər Kənan Orucov Ədilin sözlərinə qoşularaq dedi ki, bu gün Vətənin keşiyində dayanan Azərbaycan əsgəri torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətilə yaşayır. "Hər an döyüşə hazır vəziyyətdə Ali Baş Komandanın döyüş əmrini gözləyirik".

Kənanın bu sözlərindən sonra 2016-cı ilin Aprel döyüşlərini xatırlayıram. Ermənistan silahlı qüvvələri Azərbaycanın ön xətt mövqelərini və yaşayış məntəqələrini intensiv artilleriya atəşinə tuturdu. Ayıq-sayıq xidmət aparan, döyüşə hər an hazır olan şəxsi heyətimiz isə əkshəmlə ilə təxribatların qarşısını qətiyyətlə aldı. Ermənistan ordusunun təxribatı məğlubiyyətlə nəticələndi, ordumuzun Aprel zəfəri kimi tarixləşdi. Nəticədə ərazilərimizin müəyyən bir hissəsi düşməndən azad olundu. Bununla da ermənilərin keçilməz səngərləri haqqında mif alt-üst oldu.

Əsgər Qafar Qasımov hərbi formanı geyindiyi ilk gündən Vətənimiz Azərbaycana vicdanla xidmət etdiyini bildirərək söhbətə başladı:

- Son illərdə Azərbaycan Ordusu düşmən təxribatlarının qarşısını dəfələrlə alıb. Bu təxribatların qarşısı alınarkən düşmən ağır itkilər verib. Təbii ki, döyüşlərin qalibiyyətlə nəticələnməsi Vətəninə candan bağlı oğullarımızın, Azərbaycan əsgərinin savaşında oldu. Havadarlarına güvənən düşmən Azərbaycan əsgərini, Azərbaycan əsgərinin Vətən sevgisini unutdu. Bizlərin ən güclü silaha, Vətən sevgisinə malik olduğumuzu gözardı etdi. Gələcək döyüşlərdə biz bunu bir daha sübut edəcək, hünər və rəşadətimizi bir daha zəfərimizlə təsdiqləyəcəyik.

Əsgər İslam Cəbrayılov isə təlim və dərslərin Böyük Qələbəyə zəmin yaratdığını dedi.

- Vətənpərvərlik insana ailədən, cəmiyyətdən ötürülürsə, döyüşə hazırlıq isə komandirlərimizin əziyyətinin bəhrəsidir. Vətənpərvər cəmiyyətdə böyüyən bizlər torpaqlarımızın işğaldan azad edilməsi zərurətini dərk edir, xidmətimizin ilk günlərindən döyüş hazırlığımıza ciddi diqqət edirik.

Əsgər yoldaşının sözlərindən fərəhlənən Ələkbər Atakişiyev əbədiyaşar komandan Heydər Əliyevin gənclər qarşısında çıxışlarından birində dediyi "Vətəni qorumaq - öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq - öz namusunu şərəfini qorumaqdır. Vətəni qorumaq - öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq - Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlər boyu əldə edilmiş milli mədəniyyətini, əsrlər boyu əldə edilmiş milli iftixarını qorumaq deməkdir. Bu şərəfli yoldur, bu şərəfli vəzifədir" kəlamlarını yaşam və xidmət fəlsəfəmiz bilirik, - deyə söhbətə körpü saldı.

Əsgərlərin hər kəlməsində hiss olunan Vətən sevgisi, Qarabağ həsrəti, Ali Baş Komandanın əmrinə hazır olmaları qəlbimə fərəh gətirdi. Böyük Qələbənin tezliklə baş tutacağına, Qarabağ həsrətinə son qoyulacağına bir daha əmin oldum. Həmsöhbət olduğum əsgərlərin simasında bütün əsgərlərə demək istəyirəm ki, unutmayın, müstəqil dövlətin vətəndaşı olmaq böyük xoşbəxtlik olduğu kimi, bu müstəqilliyin keşiyində dayanmaq məsuliyyətli vəzifədir. Vətəni qorumaq müqəddəs vəzifədir. Əslində, bu vəzifə həm də ona görə müqəddəsdir ki, bu Vətəni sizlər, torpağına candan bağlı olan igidlər qoruyurlar.

Vətənə övladlıq borcunuzu yerinə yetirib evinizə başıuca qayıdacaqsınız, hər zaman qürur duyacaqsınız ki, bu Vətənin keşiyində məğrur dayanmısınız. Arzu edirəm ki, komandirlərinizi, onların öyrətdiklərini daim xatırlayıb, Vətənin sizə ehtiyacı olduğu anda səngərlərə qayıdasınız, torpaqlarımızı işğaldan azad edənlərin sıralarına qoşulasınız.

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 2-ci səhifədə)

# "Döyüşlərin qəhrəmanları biz olacağıq!"

Əsgər Murad Musayev deyir ki, atam da Azərbaycan Ordusunda xidmət edib, qardaşım da. "Mən də xidmət edirəm. Ali Baş Komandanın əmriylə döyüşlərdə üçümüz də iştirak etmək niyyətindəyik. Düşmənin təxribatının qarşısı iyulda da qətiyyətlə alındı. Əsgərlərimiz mərdliklə döyüşdülər. Bir dəfə komandirimiz söhbətində Böyük Vətən müharibəsində Kursk ətrafında faşistləri kürüyən son döyüşdən də söz açmışdı. Son döyüşün nə olduğunu qardaşım da, mən də onda dərk etmişdik. Əsgərlərimiz iyulda müharibənin son döyüşü ovqatıyla döyüşdülər. Mən də, əsgər yoldaşlarım da döyüşmək istəmişdik. Ancaq bizim iştirakımıza ehtiyac olmamışdı".

- Biz əvvəlki döyüşlərin də, o döyüşlərin də qəhrəmanlarının, şəhidlərinin döyüş yolunu davam etdirəcəyik. Hər birimiz Böyük Qələbənin əsgəri olmaq istəyirik, - əsgər Abdul Novruzov əsgər yoldaşının sözünə söykək kimi belə deyir.

İsaq Allahverdiyev əsgər yoldaşının sözünü ərklə, həm də düşündürücü bir mətləblə tamamlayır:

- Qəhrəman olmaq niyyətiylə deyil, qalib gəlmək üçün döyüşəcəyik.

Söhbətin axarı düşüncələrimizin nizamına dönür. Mənə elə gəlir ki, məhz bu söhbətin işığına gəlirəmmiş, əsgərlərimiz qəlbimdən keçənləri duyubmuş. Beş-altı addım o yanda torpağı yarıb Gün üzünə çıxan, oradan dikələn daşın duruşunu gözlərimə köçürə-köçürə göy üzünə baxıram; illərdi səngərlərdə düşüncələrimdə azca direniş hiss edincə hoyuma göy üzü çatır. İndi də həmin ovqatdayam - əsgərin mənəvi kamilliyi şərtləndirən kəlmələri könül xoşluğuna dönüb. Bizə belə bir ovqat yaşadan əsgərə xitabən:

- Hər döyüşün öz qəhrəmanları olur. Qəhrəmanlıq anları dövlət üçün, xalq üçün yaşamaqdı, - deyirəm. Sözlərimin sual kimi səsləndiyini duyunca tarixin mərhələlərini xatırladıram. Tarix qəhrəmanları da yaşadır, qəhrəmanlıqları da. Hər qəhrəman özünəməxsus qəhrəman olur, qəhrəmanlıqlar isə müəyyən qədər oxşar. Bu oxşarlıq onların mahiyyətindədir: Qələbə. Qəhrəmanlığın başlanğıcı vətənsevərlikdi, bir də qələbə ruhudu.



Mənə elə gəlir ki, əsgərlər "Hərbi xidmət hərbi qulluqçunun sizin dediyiniz kimi yaşadır" deyəcəklər. Bir nəfəs dərimi vaxt ötüşməmiş əsgər Murad Musayev deyir:

- Oxuduğum bir məqalədə bir əsgər deyirdi ki, çağırışçı nəyi qoruyacağını hərbi xidmətə gələnə qədər bilir, əsgər necə qoruyacağını hərbi xidmətdə öyrənir. Biz də hərbi xidmətdə Vətəni necə qorumağı mükəmməl öyrənmişik. Biz də torpaqlarımızı işğaldan azad etmək amalı ilə xidmət edirik. Ali Baş Komandanın döyüş əmri qələbə ilə tamamlanacaq. Bilmirəm, hansımız qəhrəman olacağıq, ancaq hamımız qəhrəman kimi döyüşəcəyik, - əsgər Rəhman Ağayev belə deyir.



Əsgər Ruslan Məmmədovun dedikləri ürəyimizi dağa döndərir:

- Yadıma nə vaxtsa eşitdiyim bir kəlam düşür: "Sonunu düşünən qəhrəman olmur." Təbii ki, özünün sonunu düşünən nəinki qəhrəman olmaz, ona heç əsgər də deyilməməlidir. Əsgər döyüşün sonunu düşünürsə, döyüşə-döyüşə qələbəyə yaxınlaşdığını hiss etmirsə, yaxşı əsgər deyil. Döyüş onu qəhrəman da edə bilər. Məqsəd qəhrəman olmaq deyil, qələbədir. Təkcə bu döyüşün qələbəsi yox, müharibənin son döyüşünün qələbəsi.

Düşündüklərin xalqınla, Vətəninlə bağlıdırsa, vətəndaşlıqdan süzülürsə gərəklidir. Ön xətdə, səngərlərdə düşüncələr gərəkli düşüncələr olur, işığı təkcə bu günü deyil, sabahları da əhatələyir. O düşüncələr əsgərlərin düşüncələrinə söykənirsə, daha da möhtəşəmləşir. El-obasını, yəni, Vətəni yad nəfəsindən qoruyanlar da, Vətənin sabahlarını düşünənlər də zaman-zaman tarixin yaddaşında qalır. Min-min illərdi belədi. Adı çəkilsə də, çəkilməsə də, qəhrəmanlığı yaşadılan məlum qəhrəmanlara da, naməlum qəhrəmanlara da el adamı, Vətən adamı deyilib.

Zabit Elman Ağayev döyüş növbətçiliyindən qayıdan əsgərlərə baxaraq:

- Ön xətdə xidmət edən əsgərlərdən biri demişdi ki, döyüş növbətçiliyini əsgərlə birlikdə Vətən sevgisi də aparır, - deyir. - Əsgər döyüş növbətçiliyi apara-apara qətiyyətləşir. Onların döyüş hazırlığı belə artır. Asudə vaxtlarda əsgərlərimizlə söhbətlərdə bu mövzudan da danışılır. Hər bir Azərbaycan əsgəri Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərin qəhrəmanı olacaq.

Söhbətləşdikcə naməlum qəhrəmanlar ifadəsi düşüncələrimi incələşdirir. Niyə naməlum deyirik? Yəni, qəhrəmanlıq olub, qəhrəmanlığın icraçısının kimliyi bəlli deyil. Ad-soyadı bəlli qəhrəmanlar kimi ad-soyadı bəlli olmayan qəhrəmanlar da qəhrəmanlığı adı tarixə düşsün deyə etməyib; tarixin bütün dönəmlərində xalqın əli silah tutanları - ruh əsgərləri düşmənə bir niyyətlə qılınc sıyırıb: Qələbə! Qılınc sıyırıb, vuruşub, qalib gəlib. Tarix o döyüşlərin qəhrəmanlıqlarını yaşadır, qılınc tutanlarının - qəhrəmanlarının hamısının kimliyi bilinmir. Min-min illərdi kimliyi bəlli olmayan qəhrəmanlar da kimliyi bəlli qəhrəmanlar kimi ehtiramla xatırlanır. Bu düşüncələr ön xətdə, səngərlərdə yenə yağışdan sonra göy üzünün göy qurşağına dönən göyqurşağı qədər gözəldi! Dan yeri qızarandan yaxama çökən düşüncələrin ürəyimi bunca məhrəmliklə bürüdüyünü də indi hiss edirəm...

Birinci Qarabağ müharibəsində tanıdığım neçə-neçə qəhrəmanla cani-dildən kəlmələşmişəm, düşüncələrim onların düşüncələrinin istisində isinib. Bunları taleyimə qazanc bilmişəm. Ağdərədə Yusif Mirzəyevi tanımışam, Tərtərdə Vəzir Orucovu tanımışam, Ağdamda Şirin Mirzəyevi tanımışam, Füzulidə Rasim İbrahimovu tanımışam, ... Söhbətləşəndə onlar əsgərlərindən danışardılar, "Əsgəri qəhrəman olmayan zabit qəhrəman ola bilməz. Döyüşü zabit, komandir, sərkərdə aparır, əsgər qalib gəlir" deyərdilər. Ağdərə əməliyyatından sonra Yusif "Əsgərlərimiz qəhrəmanlıqla döyüşdü", - demişdi.



Qəhrəmanların kimliyi ilə maraqlanmışdım. Ani olaraq üzümə baxmışdı, sonra Vəngə tərəf: "Döyüşdə iştirak edənlərin hamısı, yəni, Azərbaycan əsgəri..." - kəlmələri ürəyimi dağa döndərmişdi", - qürurunun cazibəsində əsgərlər Yusifin unudulmayacaq kəlamını maraqla, bir az da duyğusallıqla dinləyirlər.

Tərtərdə Vəzir Orucovun necə döyüşdüyünü hamı kimi mən də bilirdim. Qəhrəman idi Vəzir. Kapitan Pənah Məmmədov qəhrəmanlardan söz düşəndə yenə ilk olaraq tanıdığımız Vəziri tanıtmışdı. Az sonra qərargahda Vəzirlə görüşmüşdük. Tələssə də, "atüstü" kəlmələşməyə vaxt tapmışdı. O da əsgərlərin döyüş əzmindən, qələbə ruhundan, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışmışdı, o da Yusifin dediyi fikrə uyğun fikir demişdi. Əsgərlər Vəzirin də fikirlərinin mahiyyətini düşüncələrinə köçürür, biri digərini tamamlayan, biri digərinə söykək olan fikirlər deyirlər:

- Vəzir Orucovun Tərtərdə necə döyüşdüyünü atamdan eşitmişdim. O illərdə atam da əsgər olub. Vəziri yaxından tanımasa da, qəhrəmanlığı haqqında çox eşidib, bir vaxtlar Vəzirlə xidmət etmiş hərbçi dostları da var, qəhrəmanı təkcə oxuduqlarından deyil, həm də xidmət yoldaşlarının xatirələrindən də tanıyırdı. Yəni, qəhrəmanlar xatırlana-xatırlana yaşadılır (əsgər Murad Musayev).

- Qəhrəmanlar haqqında nə qədər danışılsa da azdı, nə qədər danışılsa da, bu söhbət tükənməyəcək (əsgər Amid Abbasov).

- Şamaxı yolunda türkün qəbri var. Ad-soyadı bəlli deyil. O vaxtlar qəhrəmanlıqla döyüşüb, şəhid olub. Yüz ildən çoxdu yaddaşlarda qəhrəman kimi yaşayır. Bu müharibənin də məlum qəhrəmanları, ad-soyadı dəqiqləşdirilməmiş naməlum qəhrəmanları olub..., - deyirəm. Əsgərlər "Biz Böyük Qələbənin qəhrəmanları olacağıq" deyirlər...

Səngərdə gözəl bir ovqat var. Böyük Qələbənin ovqatı qınından sıyrılmış qılınc kimidi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.

**Suallar:**
**1. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.**
**2. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət.**

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları*

Müharibə - dövlətlər, xalqlar və sosial qrupların münasibətinin dəyişməsi, siyasi-iqtisadi və digər məqsədlərə nail olmaq üçün zorakılıq vasitələrinin tətbiqi ilə bağlı çox mürəkkəb və çoxcəhətli ictimai-siyasi hadisədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəşəriyyət tarixi müharibələrlə zəngindir və bu gün də müasir dünyada bəzən siyasi qərarların həllində zor tətbiq edilməsi hallarına rast gəlmək olur. Müharibələrin qarşısını almaq mümkün olmasa da, dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul edilmiş, beynəlxalq konvensiyalarda öz əksini tapmış hüquq qaydaları mövcuddur. Bu qaydalar beynəlxalq humanitar hüququn əsasını təşkil edir.

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir sahəsi olub, həm beynəlxalq silahlı münaqişələr, həm də qeyri-beynəlxalq silahlı münaqişələrlə əlaqədar beynəlxalq hüququn subyektləri arasında yaranmış münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi insanların və əmlakın mühafizəsi və müharibənin aparılmasının üsul və vasitələrinin məhdudlaşdırılması sahəsindəki münasibətləri tənzimləyən, həmçinin onun norma və prinsiplərinə görə məsuliyyəti müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusudur. Beynəlxalq humanitar hüquq silahlı münaqişə yarandıqda fəaliyyətə başlayır. Beynəlxalq humanitar hüququn obyektini silahlı münaqişənin gedişində döyüşən tərəflər arasında yaranan ictimai münasibətlər təşkil edir.

Beynəlxalq humanitar hüquq - silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmusuna deyilir. "Beynəlxalq humanitar hüquq" görkəmli alim Jan Pikte tərəfindən beynəlxalq-hüquqi leksikona daxil edilmiş nisbətən yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründə tətbiq edilən hüquq; müharibə hüququ; silahlı münaqişələr hüququ; müharibə qanunu və adətləri və s. Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, obrazlı desək, birbaşa döyüş meydanına gəlir və sırf humanist mövqedən çıxış edərək, artıq başlamış müharibəni, onun xarakterindən və başlama səbəblərindən asılı olmayaraq, müəyyən normativ çərçivəyə salmağa can atır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca məqsədini göstərmək olar:

1. Kombatant (döyüşən) olmayanları, yəni, mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan "Cenevrə hüququ" həyata keçirir. "Cenevrə hüququ" termini, əsas etibarilə, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarına istinad edilərək götürülmüşdür.

2. Seçimsiz zorakılığın, artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədin həyata keçirilməsinə yönəlmiş hissəsi "Haaqa hüququ" adlandırılır.

Beynəlxalq humanitar hüquq, əsas etibarilə müqaviləyə söykənir. Bu sahədə aşağıdakı sazişləri göstərmək olar:

- partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında Sankt-Peterburq Bəyannaməsi;
- asanlıqla dönə bilən və yastılanan güllələrin istifadə olunmaması haqqında Haaqa Bəyannaməsi;
- quru müharibəsinin qanun və adətləri haqqında IX Haaqa Konvensiyası;
- boğucu, zəhərli və ya digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Cenevrə Protokolu;
- genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya;
- müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları;
- quruda döyüşən silahlı qüvvələrdə yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası;
- dənizdəki silahlı qüvvələrdə yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası;
- hərbi əsirlərlə rəftara dair Cenevrə Konvensiyası;
- müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası;
- silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyası;
- ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında Konvensiya;
- 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokollar;
- Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol;
- qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol;
- hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya.

Konvensiyaya 3 protokol əlavə olunmuşdur:

- aşkar edilməyən qəlpələr haqqında Protokol;
- minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Protokol;
- yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol.

Sadalanmış bu beynəlxalq müqavilələr içərisində beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətlisi, şübhəsiz ki, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və onlara 1977-ci il Əlavə Protokollarıdır.

Beynəlxalq humanitar hüququn əsas prinsipləri:

- hərbi zərurət və ictimai qaydanın qorunması həmişə insana hörmətlə uzlaşdırılmalıdır;
- sıradan çıxarılmış şəxslər, həmçinin bilavasitə döyüşlərdə iştirak etməyənlər hörmət, müdafiə və humanitar hüquqa malikdirlər;
- döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlər qoyulmaşdır.

Beynəlxalq humanitar hüququn tətbiqi prinsipləri:

**Toxunulmazlıq prinsipi**

Bu prinsipə əsasən:

- döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşənlərin həyatının mühafizə olunmaq hüququ vardır. Açıq surətdə tabe olan (əsir düşən) şəxsləri öldürmək olmaz;
- işgəncə, alçaldıcı və qeyri-insani cəza qadağan olunur;
- hər bir kəsin qanun qarşısında insan hüquqlarının tanınması hüququ vardır;
- hər bir kəsin onun şərəfinə, ailə hüquqlarına, əqidəsinə və adətlərinə hörmət hüquqları vardır;
- əzab çəkən hər kəsə onun konkret fiziki-psixoloji vəziyyətində zəruri olan qulluq göstərilməlidir;
- hər bir kəsin ailəsi ilə əlaqə saxlamaq və kömək almaq hüququ vardır;
- heç kim qanunsuz yol ilə mülkiyyətindən məhrum edilə bilməz.

**Müdafiə prinsipi**

Dövlət onun əlinə keçmiş şəxsin istər milli, istərsə də beynəlxalq səviyyədə hüququnu təmin etməlidir. Əsir onu tutmuş qoşunların deyil, onların tabe olduqları dövlətin ixtiyarındadır. Düşmən dövlət əsir götürdüyü şəxslərin şəraiti və saxlanmasına görə, işğal etdiyi ərazidə isə ictimai asayişin və xidmət sahələrinin qorunmasına görə məsuliyyət daşıyır.

**Müharibə hüququna aid prinsiplər**

- müharibə edən tərəflər mülki əhali və mülki obyektləri qorumaq üçün həmişə mülki əhali və kombatantları (döyüşənləri) fərqləndirməlidir;
- əsas məqsədi mülki əhalini qorxuya salmaq olan zorakılıq aktları ilə hədələmə qadağan olunur;
- münaqişə edən tərəflər mülki əhalini qorumaq və ya heç olmazsa mülki əhali arasında təsadüfi itkilər və ya təsadüfi zərərdən imkan daxilində qaçmaq üçün mümkün olan bütün ehtiyat tədbirlərini görməlidir;
- yalnız Silahlı Qüvvələrin heyətinə daxil olan şəxslər düşmən üzərinə hücum edə və ona müqavimət göstərə bilərlər;
- müdafiə olunmayan yerlərə hücum etmək qadağandır;
- qurğu və tikililərə, onlardan mülki əhaliyə təhlükə yarana biləcəyi halda hücum etmək qadağandır;
- mülki əhali hərbi obyektlərin hücumlardan müdafiəsi üçün istifadə edilə bilməz;
- mülki obyektlər hücum obyekti ola bilməz. Mülki əhalinin yaşaması üçün zəruri olan obyektləri məhv etmək və ya başqa yerə köçürmək qadağandır;
- qarət qadağandır.

Hərbi əməliyyatlar aparılmasının metod və vasitələrinə görə, məhdudiyyət prinsipinin mahiyyəti ondan ibarətdir ki, hərbi əməliyyatları kimsə lüzumsuz zərər vura və ya həddən artıq əzab verə biləcək silah və ya metodlardan istifadə etməklə aparmaq qadağandır. Həmin prinsipə əsasən:

- hədəflərə fərq qoymadan edilən hücumlar qadağandır;
- mülki əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır;
- hərbi əməliyyatlar zamanı təbii mühitin qorunması üçün qayğı göstərilməlidir;
- mülki əhali arasında müharibə aparmaq metodu kimi aclıqdan istifadə etmək qadağandır;
- xəyanətə əsaslanan hərbi əməliyyatlar qadağandır.

Qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüququn prinsipləri ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin prinsiplərini bir-birinə qarışdırmaq olmaz. BQXK-nın prinsipləri qeyri-hökumət təşkilatı olaraq Qırmızı Xaçın fəaliyyəti üçün əsas istiqamət kimi çıxış edir. Beynəlxalq humanitar hüququn prinsipləri isə silahlı münaqişə zamanı döyüşən tərəflər arasında münasibətləri tənzimləyir.

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün qanunvericilik aktları beynəlxalq hüququn normalarına uyğunlaşdırılmışdır. O cümlədən də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 116-cı maddəsilə silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə cinayət məsuliyyəti müəyyən edilib.

Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmaq dedikdə aşağıdakılar nəzərdə tutulur:

- mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmək;
- ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurmaq;
- sülhməramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardım göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qırmızı Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmək;
- hərbi əməliyyatların aparılma üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmək;
- yetkinlik yaşına çatmayanları Silahlı Qüvvələrə cəlb etmək;
- hərbi zərurətdən irəli gəlməyən genişmiqyaslı dağıntılar törətmək;
- müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmək;
- müvəqqəti barışıq haqqında, yaxud həlak olanların və ya yaralıların döyüş meydanından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozmaq;
- mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmək;
- hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmək, quldurluq etmək, əmlakların məhv etmək, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq almaq;
- dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmək;
- hərbi əməliyyatlarda birbaşa iştirakını aşkar surətdə dayandırmış, həmçinin silahlı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmək;
- işğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmək;
- hərbi əsirlərin və mülki şəxslərin Vətənə qaytarılmasını əsassız olaraq gecikdirmək;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsulları silahlı münaqişələrdə tətbiq etmək.

Yuxarıda göstərilən hüquq pozuntularına görə yeddi ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir.

İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha xatırlatmalıdır ki, Ermənistan silahlı qüvvələri 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal etməyə müvəffəq olmuşdur. Bu işğalın səbəbləri və nəticələri haqqında əvvəlki ictimai-siyasi hazırlıq dərslərində ətraflı məlumatlar verilmişdir. Ancaq qeyd etmək lazımdır ki, ermənilərin öz işğalçılıq planlarını həyata keçirərkən həm dinc əhaliyə, həm də yaralanmış və əsir düşmüş döyüşçülərimizə qarşı törətdikləri vəhşiliklər II Dünya müharibəsində faşistlərin törətdikləri vəhşiliklərlə müqayisədə daha dəhşətlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Gənc zabitlərimiz*

# “Zabit adının məsuliyyəti daha böyükdür”

Yaranışından fərdi xarakterə malik olan insanın özünəməxsusluğu ona mənşəyindən asılı olaraq irsi keçir və bu ilahi keyfiyyət bəşərin bütün ömrü boyu davranışını nizamlayır. Məhz təyinatı üzrə öz həyatını quran insan isə xoşbəxt ola bilir. Arzularını gerçəkləşdirərək öz idealına yaxınlaşan hər bir şəxs yaşadığı ömrü məzmun etibarı ilə yaşayır və yaradır. Ən əsası odur ki, insan yaşadığı ömrü Vətənə xidmətdə keçirsin, onu canından çox sevsin, xalqının xoşbəxtliyi üçün əlindən gələni əsirgəməsin.

Böyük fransız yazıçısı Viktor Hüqo yazırdı: “Vətənpərvər bir insanın vəzifəsinin yarısı Vətəninə, digər yarısı da xalqına xidmət olmalıdır”.

Həyatının mənası Vətən olan, torpaqlarımızın işğaldan azad olunması naminə zabitlik peşəsini seçən, canı və qanı bahasına başa gəlsə belə bu yola çıxan zabitlərdən biri kapitan Ərhan Nəsibovla ön xətdə keçirilən təlim-məşq prosesi zamanı tanış olduq.

"Ordu o zaman güclü olur ki, onun peşəkar zabit heyəti olsun", - deyə zabit Ərhan Nəsibov söhbətinə başladı. - Bunun üçün hər bir zabit hərbi təhsil almalı, hərb sənətini dərindən öyrənməli, daim öz üzərində işləməli, gələcəyin zabiti kimi yetişməlidir. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Zabit adının məsuliyyəti daha böyükdür. Bu peşəni seçən hər bir gənc, ilk növbədə, Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir".

Zabit Ərhan Nəsibov onu da qeyd etdi ki, Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsi durmadan yüksəldilir, şəxsi heyət müasir silah və texnika ilə təchiz edilir, yeni poliqonlar inşa edilir, döyüş şəraitinə uyğun təlimlər həyata keçirilir. "Bu gün xalqın qəlbinin ordusu ilə birgə döyündüyünü göstərdi".

"Güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilmiş torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır", - 



vəzifəsindən asılı olmayaraq, hər bir hərbi qulluqçu verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Keçirilən təlimlər, eyni zamanda, döyüş meydanında qazanılan son qələbələr də əsgər və zabitlərimizin müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduqlarını, döyüş qabiliyyətlərini və peşəkarlıqlarını, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarıqlarını əhəmiyyətli dərəcədə artırdıqlarını göstərir".

Zabit Aprel döyüşlərindən də söz açdı. “Aprel döyüşləri bir neçə gün ərzində bütün Azərbaycan xalqını içəridən silkələdi, ruhumuzu oyatdı, hər kəsdə qələbənin uzaqda olmaması inamını yaratdı. Bu ilin iyulunda Tovuz istiqamətində gedən döyüşlər isə bu inamı daha da artırdı. “Azərbaycan xalqının həmrəyliyini nümayiş etdirdi, deyə zabit qeyd etdi. - Hər bir əsgərin qayğısına qalan, onun döyüş ruhunu yüksəldən, maddi-texniki bazasını gündən-günə yaxşılaşdıran dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edib. Bir sözlə, Qarabağın zirvələri, yüksəklikləri, təpələri çoxdandır başı üstündə ayulduzlu bayrağımızın dalğalanmasının həsrətindədir.

İnanırıq ki, tezliklə Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edəcək, hər bir yurddaşımızın zəfər diləyini ən yaxın sabahlarda səvimli bir gerçəyə çevirəcəyik! Tezliklə tarixi Qələbəni qazanmaqla Azərbaycan tarixinin yeni səhifəsini yazacağıq!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Rusiya hərbi gəmiləri Bakı limanını tərk edib

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Mahaçkala" və "Astraxan" kiçik artilleriya gəmiləri, "SB-738" xilasedici yedək gəmisi sentyabrın 4-də Bakı limanını tərk edib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 50 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***8 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 57 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Rusiyada keçiriləcək “Qafqaz-2020” təlimlərində Azərbaycan Ordusunun hərbçiləri iştirak etməyəcəklər

Sentyabrda Rusiyada keçiriləcək "Qafqaz-2020" təlimlərində Azərbaycan Ordusunun hərbi qulluqçuları iştirak etməyəcəklər.

Bunu AZƏRTAC-a Müdafiə Nazirliyindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, həmin hərbi təlimlərə, sadəcə olaraq, iki nəfər hərbi qulluqçumuzun müşahidəçi qismində göndərilməsi planlaşdırılır.



# Naxçıvanda hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması diqqət mərkəzindədir

Naxçıvan Qarnizonu Qoşunlarında xidmət keçən hərbi qulluqçuların və ailə üzvlərinin sağlamlıqlarının qorunması işi daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq hazırda tikinti işlərinin aparıldığı və MDB məkanında ən böyük hərbi xəstəxanalardan olacaq Naxçıvan Muxtar Respublikası Mərkəzi Hərbi Hospitalını misal göstərmək olar. Bir məqamı da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2018-ci il mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərlərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Tibbin ən son nailiyyətlərindən olan avadanlıqlarla təchiz edilmiş hərbi hissələrin xəstəxana və tibb məntəqələrində müxtəlif bölmə, kabinə və laboratoriyalar fəaliyyət göstərir. Bütün hərbi xəstəxanalarda şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları mövcuddur. Müalicə və müayinə olunan hərbi qulluqçuların qidalanması və asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılır. Hərbi tibb personalı yaradılan hərtərəfli şəraitdən istifadə edərək hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün əllərindən gələni əsirgəmirlər.

İstər həkim, istərsə də orta tibb işçilərinin peşəkarlıqlarının artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlərlə yanaşı, təkmilləşdirmə kursları da keçirilir. Təxliyyə qruplarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində müasir təcrübənin öyrənilməsi və tətbiqi daim diqqət mərkəzindədir. Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən birgə döyüş atışlı taktiki və taktiki-xüsusi təlimlərdə tibb təminatının yüksək səviyyədə təşkili üçün hərbi həkim heyəti praktiki fəaliyyətlərə cəlb edilir. Təlimlər zamanı peşəkar tibb personalı döyüş meydanından yaralıların səhra şəraitində açılmış tibb məntəqəsinə təxliyyəsini və tibbi yardımın göstərilməsini məşq edirlər.

Muxtar respublika ərazisində koronavirus infeksiyasına qarşı aparılan zəruri qabaqlayıcı profilaktik tədbirlər çərçivəsində Naxçıvan Qarnizonu Qoşunlarında tibbi-profilaktik və



dezinfeksiyaedici tədbirlər gücləndirilərək sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır.

Şəxsi heyətin sağlamlığı vacib amil olduğundan hərbi hissələrin xəstəxana və tibb məntəqələri bütün tibbi ləvazimatlarla təmin edilib və hərbi qulluqçuların gigiyena qaydalarına düzgün əməl etmələri üçün profilaktik tədbirlər görülür. Həyata keçirilən sanitariya-gigiyena, əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya işlərinin nəticəsidir ki, hazırda dünyanın mübarizə apardığı xəstəliklərdən uzaq olan hərbi qulluqçularımız "Təlimdə tər, döyüşdə zəfər" prinsipi ilə real döyüş şəraitində keçirilən təlimlərdə bütün tapşırıqları peşəkarcasına yerinə yetirir və ayıq-sayıq döyüş növbətçiliyi aparırlar.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Əsgər dostluğu - könül xoşluğu

Münasibətlərin ən həssası dostluqdu. Dostluq xarakter uyğunluğudu.

Hərbi xidmətdə yaranan, ikitərəfli, bəzən çoxtərəfli olan dostluq daha uzunömürlü olur. Hərbi xidmət əsgərin xarakterini daha mətinliklə formalaşdırır, buna hərbçi xarakteri deyirlər. Hərbi xidmət əsgərin Vətənə sevgisinin - Vətən sevgisinin dönməzləşməsində də əhəmiyyətli olur. Ön xətdə döyüş növbətçiliyi aparan əsgərlərin dostluğu özünəməxsus amillərlə yaranır, həsəd aparılası səviyyədə mətinləşir, formalaşır. Döyüş əzminin, qələbə ruhunun oxşarlığı, ortaqlığı, bəzən eyniliyi məhz bu amillərlə bağlıdır. Bir neçə il əvvəl Hərbi andiçmə mərasimində iki atanın görüşü hamı kimi mənim də diqqətimi çəkmişdi. Bu görüş adi görüş deyildi. Bu görüş doğmalıqdan da coşqun görüş idi. Məlum oldu ki, müharibənin ilk illərində eyni bölmədə xidmət ediblər. Hər ikisi yaralanıb. Müalicədən sonra tərxis olunublar. O vaxtdan bu yana bir-birini görməyiblər. İndi oğulları əsgərdi. İndi oğulları eyni bölmədə xidmət edirlər. Az sonra məlum oldu ki, onların oğullarının bir-birinə xoş münasibəti var. Atalar da, biz də əmin olduq ki, bu münasibət dostluğun başlanğıcıdı...



Ön xətdə xidmət edən əsgərlərin dostluğa münasibəti daha həssas olur...

İsaq Allahverdiyev Goranboy rayonundandır, Raco Səfərov Şirvandan. Hərbi xidmətin ilk günlərindən aralarında xoş münasibət yaranıb. Kəlmələşəndə bəzən fikirlərinin, düşüncələrinin oxşar olduğunu da hiss ediblər. Bu, dostluq duyğularının başlanğıcı imiş, sonralar hiss ediblər ki, bu münasibət yaşarı olacaq. "Dostluğumuzu son nəfəsəcən yaşadacağıq" kəlmələrini "Dostluq başlanğıcı olan, sonu olmayan münasibətdir" kəlmələri tamamladı. Mənə elə gəldi ki, bu gərəkli, düşündürücü kəlmələri beş-on addım o yanda söhbət edən əsgərlər də eşitdi.

Onlarla söhbətləşməyi qərara aldıq. "Söhbətinizə biz də qoşulmaq istərdik" dedim. Etiraz etmədilər. Məlum oldu ki, iyul döyüşlərindən danışırmışlar. "Döyüşlər vaxtı nələr düşünürdünüz?", - soruşdum.

- Arzulayırdıq ki, döyüşlərə bizim bölməmiz də cəlb olunsun. Döyüşənlərdən aralı olsaq da, ürəyimiz onların yanındaydı. Səmimiliyimə inanın, rahatlığımızı tamam itirmişdik. Bilirdik ki, əsgər qardaşlarımız qalib gələcəklər. Buna əmin olsaq da, qəlbimizdə qəribə narahatlıq vardı, - İsaq Allahverdiyev belə dedi.

- O döyüşləri biz də 2016-cı ilin Aprel döyüşlərinin davamı bildik, bu döyüşlərin də qələbə ovqatının düşmənə məğlubiyyət acısı yaşadacağına əmin idik. Qələbəyə görə bizim də sevincimiz kükrədi. Şəhidlərimizə görə biz də çox təəssüfləndik, - Raco Səfərov belə dedi.

- Şəhidlərimizi heç birimiz son nəfəsəcən unutmayacağıq, - Raconun qaşlarının çatıldığını hiss etdim.

Şəhidlərin ruhu bizimlədir, döyüşlərdə onların ruhu bizə uğur diləyəcək, - İsaq alnını ovuşdurdu.

- Hərbi xidmətə gələnə kimi ordumuz haqqında ətraflı məlumatımız vardı. Oxuduqlarımız, televiziyada gördüklərimiz, üstəlik atamızın dedikləri bizim düşüncələrimizi ordu ilə sıx bağlayırdı, - Raco dostuna baxdı.

- Elədir. Oxuduqlarımızı həmişə atamızın söhbətləri tamamlayırdı. Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr edilən paradı atamla birlikdə izlədik. Hiss edirdim ki, qürurdan atamın sinəsi ürəyinə darlıq edir. Mən də eyni duyğuları yaşayırdım, - İsaqın dediklərini dostunun dediklərinin davamı kimi dinlədik...

Əsgər dostluğu bir ömrə bəs edəsi könül xoşluğudur...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar

### Türkiyədə daha altı terrorçu məhv edilib



Türkiyədə həyata keçirilən antiterror əməliyyatları çərçivəsində daha altı terrorçu zərərsizləşdirilib.

Bu barədə Daxili İşlər naziri Süleyman Soylu sosial şəbəkə hesabından məlumat yayıb.

Nazir bildirib ki, kəşfiyyat və əməliyyat uğurlu nəticə verib və Bitlisdə 6 terrorçu pilotsuz uçan aparat vasitəsilə məhv edilib.

### Ukrayna MDB-nin daha üç sazişindən çıxıb



Ukraynanın Nazirlər Kabinetinin qəbul etdiyi qərara əsasən Ukrayna MDB-nin daha üç sazişində, xüsusilə, Baytarlıq sahəsində, təşkilata üzvü olan dövlətlərin ərazilərinin sanitar mühafizəsi sahəsində əməkdaşlıq haqqında və Bitki Karantini üzrə Koordinasiya Şurasının yaradılması barədə sazişlərdə iştirakını dayandırıb.

Bu qərar hökumətin sentyabrın 2-si keçirilmiş iclasında qəbul edilib.

### Əfqanıstan hakimiyyəti "Taliban" hərəkatının 5 minədək tərəfdarını azad edib



Əfqanıstan hakimiyyəti əldə olunan saziş çərçivəsində "Taliban" hərəkatının demək olar ki, 5 min tərəfdarını azad edib.

Buna baxmayaraq, Əfqanıstan hökuməti digər dövlətlər tərəfindən qoyulan məhdudiyyətlərə görə bir neçə məhbusu azadlığa buraxa bilmir. Burada bir sıra ölkənin, o cümlədən Fransa və Avstraliyanın azad olunmasına qarşı çıxdığı yeddi nəfərdən ibarət qrupdan söhbət gedir.

"Biz diplomatik səylər göstərir və dialoqun tez bir zamanda başlamasını gözləyirik", - deyə Əfqanıstanın Milli Təhlükəsizlik Şurasının rəsmi nümayəndəsi Cavid Feysəl bildirib.

### Somalidə terrorçular ABŞ-ın 4 hərbçisini qətlə yetiriblər



Somalidə "Əl Şabaab" terror təşkilatının törətdiyi partlayış nəticəsində ABŞ-ın yerli əsgərlərə təlim keçən 4 hərbçisinin həlak olduğu bildirilir. "Əl-Qaidə"nin yerli silahlı qruplaşması bəyan edib ki, kamikadze terrorçunun idarə etdiyi avtomobilin partladılması nəticəsində Somali ordusunun 16 əsgəri də qətlə yetirilib, 12 hərbçi isə yaralanıb. Terrorçular ABŞ-ın hərbi texnikasını da məhv etdiklərini bildiriblər.

Ölkə hökuməti isə partlayış nəticəsində ABŞ-ın bir hərbçisinin və 10 nəfər somalili əsgərin həlak olduğu barədə məlumat yayıb.

Beynəlxalq jurnalistlər qeyd edirlər ki, son vaxtlar "Əl Şabaab" terror təşkilatı ilə rəsmi Moqadişonun məlumatları arasında ciddi fərqlər olur.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# FNSS Pars zirehli döyüş maşını



Türkiyənin müasir çoxməqsədli zirehli FNSS Pars döyüş maşını Amerika-türk FNSS sənaye konsorsiumu tərəfindən hazırlanır və istehsal edilir. Zirehli döyüş maşını rəsmi olaraq 2005-ci ildə nümayiş etdirilib. Zirehli maşının şassisi 8x8 təkər formulalıdır. Bu maşının ağır və yüngül variantları da mövcuddur (6x6 və 10x10). FNSS Pars zirehli döyüş maşını 11 nəfərə qədər desantı daşıya bilir. Zirehli döyüş maşınının modifikasiyası "Pars" 12,7 mm-lik pulemyotla təchiz olunub. Piyadaların döyüş maşınında biryerli fırlanan "Şarşupter" qülləsi quraşdırılıb və 25 mm-lik M242 avtomat topla və qoşa 7,62 mm-lik pulemyotla silahlanıb. Döyüş komplekti 380 ədəd mərmidən ibarətdir və atəş tezliyi dəqiqədə 200 atışdır. Pars zirehli döyüş maşının zirehi atılan 14,5 mm-lik zirehdeşən güllələrdən və dairəvi olaraq 7,62 mm-lik zirehvuran döyüş sursatlarından qorunmağa qadirdir. Maşının mühərrikinin gücü 524 at gücündədir. Şose yolda sürəti saatda 100 kilometr, üzmədə isə saatda 8 kilometr təşkil edir.



FNSS Pars 6x6 zirehli maşının çəkisi 26 ton, heyəti 2 nəfər, 11 nəfər də desantdan ibarətdir. 2012-ci ildən istismara verilib. Gövdəsinin uzunluğu 7970 mm, eni 2820 mm, hündürlüyü 2350 mm, klirensi 120 mm-dən 500 mm-ə qədər tənzimlənir. Zirehi güllə və qəlpəyə qarşı davamlıdır. 1x12,7 mm-lik pulemyotla silahlanıb və TSD-2015 mühərriki ilə təchiz edilib. Şose yolda sürəti saatda 100 kilometr, ehtiyat hərəkəti 700 kilometr, kəsişmə yerdə ehtiyat hərəkəti 350 kilometr təşkil edir. Asılqanının növü pnevmatikdir. 0,7 metrlik divar, 2,0 metrlik xəndək maneələrini keçə bilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Mayor Məhərrəmov Rəşad Sərvər oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şərifova Sənubər Hafiz qızına verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 535
Nüsxə 3960